21 SENTYABR 2021
№ 170 (4532)

Azərbaycan Respublikasının
Medianın İnkişafı Agentliyi

**İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması**

# Ermənistanın cinayətlərinin beynəlxalq hüquqi ifşası insan haqlarına dair maarifçiliyin təzahürü kimi...

**Ermənistan Azərbaycanı beynəlxalq məhkəməyə verib. Ermənistanın iddiasında deyilir ki, "Azərbaycan onilliklər ərzində erməniləri etnik diskriminasiyaya məruz qoyub". Ermənistan BMT-nin ən yüksək məhkəmə instansiyasına ünvanladığı iddiada Azərbaycanı, Qarabağda son müharibə də daxil, "onilliklərdir Ermənistan vətəndaşlarına və etnik ermənilərə qarşı insan haqları pozuntularında" ittiham edib.**



Ermənistanın iddiasında deyilir: "Azərbaycan onilliklər ərzində dövlət səviyyəsində yürüdülən erməni nifrəti siyasəti ilə erməniləri etnik diskriminasiyaya məruz qoyub".

Bu barədə məlumatı sentyabrın 16-da Haaqada mənzillənmiş Beynəlxalq Cinayət Məhkəməsi (BCM) yayıb. Məhkəmənin məlumatında deyilir ki, İrəvanın ittihamına görə, "ermənilər sistematik diskriminasiyaya, kütləvi qırğınlara, işgəncə və başqa insan haqları pozuntularına məruz qalmalı olublar". Məlumatda qeyd olunur ki, Ermənistan bu insan haqları pozuntularının, "vətəndaşlığından asılı olmayaraq bütün erməni millətindən olanlara" tətbiq olunduğunu iddia edir. Ermənistan habelə iddia edir ki, "bütün bu hərəkətlər Azərbaycanın 2020-ci ilin sentyabrında Dağlıq Qarabağa və Ermənistana qarşı təcavüzündə bir daha təzahür edib".

İrəvan bildirib ki, Ermənistanın Azərbaycanın sözügedən Konvensiyanı pozmasına son qoyulması üçün bütün cəhdləri boşa çıxıb. Ermənistan BCM-i "son dərəcə təcili" bu məsələ üzrə "keçid tədbiri" görməyə, "Ermənistanın və ermənilərin hüquqlarının qorunub saxlanmasına və iddialar sübut olunanadək bu mübahisənin pisləşməsinin və uzanmasının qarşısını almağa" çağırıb. Azərbaycan Xarici İşlər Nazirliyi bildirib ki, Azərbaycan dövləti özünü qətiyyətli bir şəkildə müdafiə edəcək və Ermənistana qarşı onun iddiasında adı çəkilən pozuntular üzrə əks-iddia qaldıracaq. Ermənistanın qaldırdığı sərsəm iddiadan görünür ki, onlar növbəti həyasızlıqlarını işə salıblar. Çünki iddia ərizəsində qeyd olunanların çoxunu onlar bizə qarşı törədiblər.

## İrəvan ballistik raketlərdən istifadə etməklə öz faşist xislətini ortaya qoyub…

Azərbaycana qarşı 30 il davam edən hərbi təcavüzü dövründə Ermənistan beynəlxalq hüquq normalarına zidd çərçivədə fəaliyyət göstərərək, müxtəlif cinayətlər törədib. Ötən dövr ərzində mənfur düşmən davamlı şəkildə Gəncəyə, Mingəçevirə, Tərtərə, Bərdəyə və digər yaşayış məntəqələrimizə raket hücumları edərək, müharibə və insanlıq əleyhinə cinayətlər həyata keçirib. Təbii ki, qarşı tərəf bununla Azərbaycan xalqını qorxutmaq və Rusiya başda olmaqla, KTMT-nin üzvlərini müharibəyə cəlb etmək məqsədi güdüb. Təcavüzkar ölkə olan Ermənistan ağır artilleriya qurğularından, qadağan olunmuş silahlardan, həmçinin ballistik raketlərdən istifadə etməklə öz faşist xislətini ortaya qoyub.

Bu gün qarşımızda duran əsas məsələlərdən biri də Ermənistan tərəfindən törədilən transmilli cinayətlərin milli və beynəlxalq səviyyələrdə hüquqi cəhətdən dəqiq qiymətini alması, bu ölkənin layiqincə mühakimə olunmasıdır. Ermənistan Azərbaycan ərazisində saysız-hesabsız müharibə cinayətləri törədib. Belə əməllərdən biri də müharibə dövründə Şuşaya "İsgəndər-M" operativ-taktiki raketin atılmasıdır. Ermənistan ordusu tərəfindən qadağan olunmuş silahlardan, o cümlədən kasetli bombalardan istifadə olunması da faktdır. İndi isə sübut olunur ki, ermənilər həm də oğurluq silahlardan istifadə ediblər. Prezident İlham Əliyev Rusiyanın TASS informasiya agentliyinə videomüsahibəsində də İkinci Qarabağ müharibəsi günlərində Ermənistanın rəsmi şəxslərinin tez-tez Moskvaya səfər etməsi və oradakı şəxsi əlaqələrindən istifadə edərək xidməti təyyarələrində ölkəyə silahlar daşıması barədə ətraflı danışmışdı. Bildirmişdi ki, bu məsələdə erməni mənşəli rusiyalı iri sahibkarların, beynəlxalq sanksiyalar tətbiq edilmiş məşhur silah alverçilərinin əli var.

## Əslində, ermənilərin törətdiyi bu bəşəri cinayətlərlə bağlı dünyanın nüfuzlu insan haqları təsisatları iş aparmalıdır

Ermənistan törətdiyi bütün bu cinayətlərə görə həm universal cinayət yurisdiksiyasına görə milli hüquqi əsasda, həmçinin beynəlxalq məhkəmə instansiyaları qarşısında məsuliyyətə cəlb olunmalıdır. Bunun üçün həm real beynəlxalq hüquqi əsaslar, həm də çoxsaylı video-audio və digər faktlar və materiallar var. Bu cinayətlərdə əsasən insanların hüquq və azadlıqları pozulub. İnsan haqları isə bəşəri mövzu sayılır. Onu qormaq hamının işidir. Bu baxımdan da biz həm vətəndaşlarımızı , həm də beynəlxalq ictimaiyyəti deyilən istiqamətdə maarifləndirməliyik. Ermənilərin insan haqları ilə bağlı törətdikləri cinayətlərlə bağlı həm təbliğatı, həm də hüquqi müstəvidə işlər aparmalıdır. Xüsusilə də beynəlxalq müstəvidə bu işlərin sürətləndirilməsinə ehtiyac var. İnsan hüquqlarının müdafisəndə biz, təəssüf ki, ikili standartların şahidi oluruq. Əslində, ermənilərin törətdiyi bu bəşəri cinayətlərlə bağlı dünyanın nüfuzlu insan haqları təsisatları iş aparmalıdır. Ancaq biz fərqli mənzərəni görürük. Buna görə də, erməni cinayətlərinin ifşası və onlara lazımi hüquqi qiymətinverilməsi istiqamətində özümüz fəallığı artırmalı, bu yöndə maarifləndirməni gücləndirməliyik.

*Məhəmmədəli QƏRİBLİ*

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyilə çap olunur.**